***Tarixən gənclər cəmiyyətin yeni ideyalı, coşqun enerjili və çevik qüvvəsi olmaqla, vətəndaşı olduqları dövlətin gələcək inkişafının müəyyən olunmasında mühüm rol oynayılar. Ölkəmizdə də onların rolu həmişə yüksək qiymətləndirilib, səmərəli fəaliyyətləri üçün hər cür şərait yaradılıb. Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə gəncliyə xüsusi diqqət yetirib, onların sağlam mühitdə böyüməsi və tərbiyə alması, müasir elm və biliklərə yiyələnməsi, peşəkar kadr kimi yetişməsi üçün dövlət siyasəti səviyyəsində tədbirlər gerçəkləşdirib.***

# Çağdaş Azərbaycan gəncliyi gələcək nəsillərə nümunədir



1994-cü ildə müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyevin fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ölkə gənclərinin həyatında əlamətdar bir hadisə oldu. Bu qurum 28 ildir ki, ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirməklə vahid dövlət siyasətinin reallaşdırılmasını təmin edir. Ümummilli liderin təşəbbüsü ilə 1996-cı ildən başlayaraq keçirilmiş Azərbaycan gənclərinin forumları gənclərin cəmiyyət həyatında rolunun artmasında, ölkənin gələcək inkişafında onların iştirakının və məsuliyyətinin yüksəlməsində önəmli rol oynayır.

Dövlət başçısı Heydər Əliyevin fərmanı ilə 1997-ci ildən hər il fevralın 2-si ölkəmizdə Azərbaycan Gəncləri Günü kimi təntənə ilə qeyd olunur. Ulu öndərin gənclərlə bağlı imzaladığı bir çox sənədlər dövlət gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edib, gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakı üçün hərtərəfli şərait yaradıb.

Ümummilli liderin formalaşdırdığı müstəqil dövlətin gənclər siyasətini 19 ildir ki, onun ideya və əməllərinin sadiq davamçısı Prezident İlham Əliyev uğurla davam etdirir və gənclərin ölkəmizin dinamik inkişafında müstəsna rolu yüksək səviyyədə təmin edilir. 2007-ci ilin ölkəmizdə "Gənclər ili" elan edilməsi gənclərin ölkənin ictimai-siyasi və mədəni həyatında fəallığının daha da yüksəldib.

Gənclərin rifahına xidmət edən dövlət proqramlarının icrası onların potensialının inkişafına, məşğulluğunun təmin olunmasına mühüm töhfələr verib. Dövlət başçısının yüksək himayəsi ilə gənclərin dövlət quruculuğu prosesində və ölkənin ictimai-siyasi həyatında fəaliyyəti təmin olunur.

2020-ci ilin payızında parlaq Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi Azərbaycan gəncləri üçün böyük bir sınaq oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşən gənclərimiz Qarabağın xilas edilməsi uğrunda ölüm-dirim savaşına qalxdılar. Məhz onların vətənpərvərlik hissi, yüksək döyüş ruhu 30 ilə yaxın müddət ərzində düşmən işğalında olan torpaqlarımızı cəmi 44 günə azad etdi.

Ölkəmizin ən böyük ictimai təşkilatı olan Azərbaycan Həmkarlar İttifaqları dövlətimizin mükəmməl gənclər siyasətinə öz səlahiyyətləri çərçivəsində fəal dəstək verir. Gənclərin böyük qisminin həmkarlar ittifaqı sıralarında birləşməsi təşkilatımızın bu istiqamətdə məsuliyyətini daha da artırır. AHİK müxtəlif vaxtlarda gənclər siyasəti konsepsiyası, həmkarlar ittifaqlarının gənclər siyasəti barədə bir sıra sənədlər qəbul edərək uğurla həyata keçirib. Azərbaycan Həmkarlar İttifaqları gənclərin hüquqlarının müdafiəsi, öz sıralarında fəal gənclərin sayının artırılması istiqamətində zəruri tədbirlər həyata keçirir. "AHİK "İlin peşəkar gənci" fəxri adı təsis edib və hər il həmkarlar ittifaqlarının gənc liderlərinin forumları keçirilir.

Azərbaycan Həmkarlar İttifaqları bundan sonra da gənclərlə bağlı fəaliyyətini uğurla davam etdirəcək, dövlətimizin bu istiqamətdə gördüyü bütün işlərə fəal dəstək verəcək. İnanırıq ki, yeni nəsillər əsl yurdsevərlik və qəhrəmanlıq nümayiş etdirən bugünkü Azərbaycan gəncliyindən nümunə götürəcək və onların yolunu şərəflə davam etdirəcək.

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***